## *Mövzu 1.* QENDER İNSAN HÜQUQLARI SİSTEMİNDƏ

1. *Qenderologiyanın elm kimi anlayışı, obyekti, predmeti və metodu.*
2. *Qenderin yaranmasının sosial və intellektual şərtləri.*
3. *Qadın hüquqları sahəsində qanunvericiliyin inkişaf mərhələləri.*
4. *Qender kateqoriyalarının spesifikası.*

**1.** Cəmiyyət – onda müxtəlif yer tutan qadın və kişilərdən ibarətdir. Bu yer cəmiyyətin mədəni səviyyəsindən asılıdır.

Cins problemlərini öyrənmədən insanın, demoqrafik dəyişikliklərin və onların səbəblərinin kompleks tədqiqatı mümkün deyil. Tibb, psixologiya, pedaqogika, hüquq və bu kimi elmlər qender tədqiqatları ilə məşğul olurlar, bu isə yeni bir elmin – ***qenderologiyanın*** yaranmasına səbəb oldu. Qenderologiyanın çoxları olduğunu nəzərə alsaq, onu tətbiqi elmlərə aid etmək olar. Bizim tədqiqatımızın məqsədi qenderin hüquqi aspektlərinin öyrənilməsidir.

Qender dedikdə elə sosial modullaşdırılmış və sosial öyrənilmiş davranış və gözləmə modelləri nəzərdə tutulur ki, onlar qadınlar və kişilər haqqında təsəvvürlərlə bağlı olsun. Qadınlar və kişilər bioloji cəhətdən fərqlənirlər, lakin bütün mədəniyyətlər onlara xas olan bu daxili bioloji fərqləri sosial gözləmələr cərgəsinə aid edir və o mənada şərh edirlər ki, onlar üçün hansı hüquqlara, resurslara və səlahiyyətlərə malik olmalıdırlar. Bu gözləmələr müxtəlif cəmiyyətlərdə xeyli fərqlənmələrinə baxmayaraq, bununla belə onlar arasında qeyri-adi bir oxşarlıq da mövcuddur.

Hər hansı bir elm haqqında təsəvvür bu elmin obyektini, predmetini, metodunu və prinsipini öyrənməkdən başlayır.

Elm predmetinin mənası onun mahiyyətini dərk etmək üçün vacibdir. «Predmet» anlayışına müəyyən məzmun və eyni zamanda obyektin özünün spesifikası verilir və bu obyekt, alman filosofu Q.V.F.Hegelin təyin etdiyi kimi, nə isə konkret, özlüyündə bitmiş və müstəqil bir şeyi ifadə edir: «Obyekt … ümumiyyətlə tam (özlüyündə hələ müəyyən olunmayan) vahiddir, ümumiyyətlə obyektiv aləm, Allah, mütləq obyektidir». Müasir alimlər elmin obyektinə müstəqil mövcud olan bütöv sistem kimi baxırlar; bu müstəqilliyə və inkişaf qabiliyyətinə malik gerçəkliyin bir parçasıdır. Qenderologiyada tədqiqat obyekti özlərinin aşağıdakı bütöv əlaqə və ziddiyyətlərindən ibarət olan qadın və kişidir:

- Qadın hərəkatının inkişafı və dərkindən;
- Qadın haqqında nəzəriyyənin inkişafından və onun cəmiyyətdəki yerindən;
- Kişi hakimiyyəti kimi, patriarxatın tənqidindən;
- Qanunvericilikdə qender asimmetriyasından;
- Yer almış qender ziddiyyətlərinin öyrənilməsindən.

Obyektlə yanaşı hər bir elmin özünün predmeti olmalıdır. ***Predmet*** – obyektin mahiyyətidir. O, obyektiv inkişaf qanunlarını və müəyyən sistemin fəaliyyətini göstərir. Qenderologiyaya gəldikdə, bu cəmiyyətin kişi və qadın yarısının həyat və fəaliyyəti ilə bağlıdır. Elmin predmetinin təyin edilməsi konsepsiyasının nəzəri işlənməsi üçün lazımdır.

Qenderologiyanın predmeti bunlardır:

- Qadının cəmiyyətdə sosial statusunun müəyyən edilməsi;
- Hakimiyyət probleminə qender yanaşmasının təhlili;
- Ayrı-seçkiliyin mahiyyəti və onun sosial-siyasi nəticələri;
- Həmişə cəmiyyətin qarşısında duran, bugünsə xüsusi əhəmiyyət kəsb edən qender məsələlərinin sosial-siyasi və iqtisadi yollarının öyrənilməsi.

Beləliklə, qenderologiyanın predmeti – cinslər və onların problemlərini həll edən müxtəlif təşkilatlar arasında yaranan ictimai münasibətlər, cinsi mənsubiyyətə görə ayrı-

seçkiliyin aradan götürülməsi yollarının aranması, hər iki cinsdən olanların stereotiplərinin dəyişdirilməsidir.

Qenderologiyanın təşəkkül tapması və inkişafı obyektin daha dərindən dərkini, problemin işlənməsini, ümumi nəticə çıxarmağı təmin edən ***metoda*** əsaslanır. Predmet və metod bir-birinə bağlı və bir-birindən asılıdırlar. Metod (yunanca "methodos") anlayışının özü «davam etmək», «izləmək» mənasını bildirir. Metod özlüyündə insanların dərki, islahatçı fəaliyyətinin təşkili və idarə olunması üçün lazım olan üsul və priyomlar sistemini təşkil edir.

Metod – elementləri qanunlar və kateqoriyalar, həmçinin praktiki-konkret dərketmə fəaliyyətinin nizamlama prinsipləri olan mürəkkəb struktura malikdir.

Qenderlogiyanın əsas metodu ümumi qaydalı qanun və kateqoriyaların, həmçinin ümumsosioloji qanun və kateqoriyaların mənasını və tətbiqini göstərən ümumfəlsəfi dialektik metoddur. Elmi idrakın ümumfəlsəfi prinsipləri olan tarixilik və məntiqiliyin vəhdəti, mücərrədlikdən konkretliyə yüksəlmə, ümumilik, xüsusilik və vahidlik dialektikası və başqa prinsiplərdən də istifadə olunur.

Qenderologiya metodu ümumfəlsəfi metodun konkret problemlərdə və həyati hadisələrdə tətbiqi yollarını göstərir. Bu çoxsaylı problemlər arasında beləleri də var: ictimai hadisələrin digərləri ilə məsələn, qadınların cəmiyyətdə sosial rolunun müəyyən edilməsi ilə əlaqədar öyrənilməsi; cinslər arasında mövcud olan və aradan qaldırıldmalı olan münasibətlərdəki ziddiyyətlərin müəyyən olunması; faktiki olaraq qadınların ayrı-seçkiliyinə əsaslanan dövlət sistemi ilə real həyat arasında fərqin göstərilməsi və s.

Qenderologiyanın digər metodu tarixi metoddur. Bu metod tarix prizması baxımından cinsi ayrı-seçkiliyin yaranması səbəblərinin tədqiqini nəzərdə tutur, metod eyni zamanda cəmiyyətin müxtəlif inkişaf mərhələlərində gah meydana çıxan, gah da sönən qadın və kişi bərabərsizliyi məsələsinin yaranma səbəblərinə, bunun təzahürünün qanunauyğunluqlarının üzə çıxarılmasına kömək edir.

Əhəmiyyəti heç də az olmayan daha bir metod müqayisəli metoddur. Onu tətbiq etdikdə, məsələn, aydın olur ki, nə üçün eyni səviyyədə inkişaf edən ölkələrdə qadınların vəziyyəti və onlara münasibət müxtəlif prinsiplər üzərində qurulur.

Qenderologiya metodu, əvvəla, cəmiyyətdə qadınla bağlı olan bütün proseslərin və hadisələrin kompleks, sistem yanaşmada öyrənilməsi ilə xarakterizə olunur; ikincisi, qadın məsələsinin həllinə sosial-siyasi yanaşma öz hüquqlarının güclü müdafiəsini, hüquq bərabərliyi prinsipini və cəmiyyətin ictimai-siyasi həyatına təsir göstərə bilən güclü hərəkatı təşkil etməyə qadir olan qadınların tarixi missiyası prinsipindən baxılmalıdır.

Elm kimi qenderologiya cins problemləri kompleksini (xüsusən də qadın problemlərinin) fəlsəfə, sosiologiya, hüquq, psixologiya, politologiya, jurnalistika mövqeyindən irəli gələn sahələrarası analizə əsaslanmalıdır. Yalnız belə yanaşma bu məsələnin ümumhumanist nəzəriyyəsi mövqeyindən tədqiqinə, cəmiyyətdə baş verənləri elmi cəhətdən əsaslandırmağa kömək edə bilər.

Özü-özlüyündə qenderologiya qadın məsələlərinin tədqiqində və həllində feminologiyaya bənzəyir, eyni zamanda onunla fərqlənir ki, cins məsələlərinin öyrənilməsində daha uzağa gedir, qender asimmetriyasını, məsələn, hüquqda tədqiq edir, cəmiyyətin harmonik inkişafı üçün sosial bərabərsizliyin yumşaldılması yollarını arayır.

**2.** Heç bir regionda qadınlar və kişilər bərabər sosial, iqtisadi, hüquqi haqlara malik deyildirlər. Bu bərabərsizliyə nə səbəb olmuşdur? Axı istər kişi, istərsə də qadın həyata təbiətin eyni qanunlarına əsasən gəlirlər, bu qanunlar o qədər eynidirlər ki, yalnız beş həftəlik embrion inkişafından sonra kişi və qadın cinsi əlamətləri meydana gəlməyə başlayır. «Gənc İtaliya» hərəkatının banisi, 1848-1849-cu illər inqilabının aktiv iştirakçısı Dc. Madzuki demişdir ki, «kişi və qadın – iki notdur, onlarsız insan qəlbinin telləri

düzgün və dolğun akkord vermir». Qədim yunan filosofu Platon da özünün «Pir» əsərində belə bir fikir söyləyir ki, hər bir insanda müxtəlif cür biruzə çıxan iki başlanğıc birləşir – kişi və qadın. N.A.Berdyayev çox haqlı olaraq qeyd edir ki, kişi – yalnız cinsdir, yarı hissədir, ayrılmış dünyanın məhsuludur, varlığın parçalanmış qəlpəsidir.

Bununla belə kişidə cins az fərqlidir. Qarşılıqlı tamamlama özünü ilk növbədə onda göstərir ki, qadın kişini nəinki təkcə fiziki doğum aktı ilə yaradır, eyni zamanda doğumla bərabər onda ruh da yaradır.

Yazıçı, simvolizm cərəyanının ardıcılı Andrey Belıy hesab edir ki, qadının kişiyə təsiri olmasaydı, bəşəriyyət bu gün fəxr etdiyi dahilərə sahib olmazdı. Kişilər qanunları yaradır, qadınlarsa adətləri. M.Qorki qeyd edirdi ki, kişi və qadın bir-birisiz heçnədirlər, küldülər, bütün varlığın sonudurlar, onlar vəhdətdirlər!

Belə mülahizələrdən çox misal gətirmək olar və onların hamısı kişilərə məxsusdur. Lakin elə onlar qadın bərabərliyini, bəzən də üstünlüyüünü, heç də siyasi, iqtisadi, sosial ya hüquqi sahələrdə deyil, yalnız cismani sahədə qəbul edirlər.

Qadının qeyri bərabər, kişidən asılı vəziyyətinin anlama cəhdləri öz kökləri ilə tarixin dərinliklərinə uzanır.

Politoloq S.Q.Ayvazovanın fikrincə, kişi ilə qadın arasında əməyin ilkin bölgüsü ikincini kişi ilə bərabər olmayan vəziyyətdə qoyub. Paradoks ondadır ki, ən qiymətli insan keyfiyyəti sayılan və yalnız qadınlara məxsus olan həyatı təzələmək qabiliyyəti kişi ilə qadın arasında sosial rolların qeyri-bərabər bölünməsinin səbəbkarı olmuşdur. Kişiyə «xarici» dünyanı fəth etmək fəaliyyəti, qadına isə uşaq doğmaq və tərbiyə etmək, məişəti qaydaya salmaq hüququ təhkim edilmişdir. Nəslin uğuru, inkişafı, təzələnməsi, yaşama qabiliyyəti də fiziki, əzələ gücü ilə bağlılıqda baxılırdı.

Kollektiv gücə daimi ehtiyac kişi nüfuzunu və üstünlüyünü yaradır, möhkəmləndirirdi. İlk növbədə güc keyfiyyətinin tələb olunduğu bir şəraitdə kişinin üstün vəziyyəti aşkar idi.

Cəmiyyətin inkişafına digər amillər – mənəviyyat, ağıl, intellekt – getdikcə artan təsir göstərirdi, bu isə həmin proseslərdə qadının layiqli yer tutması üçün lazımi zəmin yaradır və gücləndirirdi.

Hələ XVIII əsrdə cəmiyyətdə demokratik dəyişikliklərə, o cümlədən qadınldarın vəziyyətini yaxşılaşdırmağa ehtiyac yarandı. Bu yeniliklərə başlamaq – qadın savadsızlığını ləğv etmədən, onların həyatın bütün sferalarında aktiv iştirakını, cəmiyyətdə qadın hərəkatı və ittifaqlarını təmin etmədən, mümkün deyildi. Elə bundan da cəmiyyətdə qadının iqtisadi, siyasi, mənəvi rolu haqqında elmi əsasların yaradılması ideyası meydana gəlirdi.

XIX əsrin sonu – XX əsrin əvvəllərində təhsilli qadınlar onların ailədə və cəmiyyətdə mövqelərinin dəyişdirilməsi, hüquqlarının müdafiəsi üçün birləşmələri haqqında tələblərlə çıxış edirdilər. Qadınlara qarşı ayrı-seçkilik bir sıra nəzəriyyələri meydana gətirdi ki, onlar təkcə bərabərsizliyin səbəblərini açmaqla kifayətlənmirdilər. Daha geniş spektrli məsələlərdən söhbət gedirdi: məsələn, yeni iqtisadi şəraitdən irəli gələn müstəqil qadın əməyindən; ailə münasibətlərindən; sosial statusun dəyişdirilməsindən; azadlıq və müstəqillik hüquqlarından; ali təhsil almaq hüququndan və s.

Qender tədqiqatları özünün ən yüksək çiçəklənmə dövrünü XX əsrin sonunda, insan hüquqlarının üçüncü mərhələdə inkişafı ilə bir vaxtda keçirdi. XX əsr ümumiyyətlə qadın problemlərinə yenidən baxılmadövrü kimi xarakterizə olunur. Ali təhsil və siyasət sahəsində tədqiqatlar üzrə Avropa Şurası (AŞ) komissiyası bu quruma üzv olan ölkələrə tövsiyyə etmişdi ki, Avropada qadın azadlığına və inkişafına nail olmaq üçün 2000-ci ilin sonunadək olan qadın problemlərinə dair tədqiqat proqramlarına yenidən baxsınlar. Hazırki dövrdə AŞ üzvü olan ölkələr kişilər və qadınlar üçün bərabər imkanlar modelinin aktiv axtarışını aparırlar. Belə modelin axtarışı əmək bazarında və ictimai münasibətlərdə məşğulluq və hərgünlük problemin kəskinləşməsi ilə bağlıdır.

İrq, milliyyət və sinif kimi, qender də sosial kateqoriyadır və hər bir fərdin həyat imkanlarını xeyli dərəcədə müəyyən etməklə, ona cəmiyyətin həyatında və iqtisadiyyatında iştirak etmə formasını verir. Bəzi cəmiyyətlərdə etnik və hüquqi bölgü yoxdur, lakin onların hamısı bu və ya digər ölçüdə qender assimmetriyasını, yəni qender fərqlərini və uyğunsuzluqlarını hiss edirlər. Bəzən bu asimmetrik təzahürlər zaman keçdikcə dəyişirlər. Lakin onlar heç vaxt ətalət vəziyyətində qalmırlar. Mahiyyətcə onlar siyasi və sosial-iqtisadi şəraitlərə reaksiya kimi çox tez dəyişirlər.

**3.** Qadının hüququn obyekti kimi deyil, subyekti kimi ilk dəfə xatırlanmasına biz artıq hüquq tarixinin eramızdan əvvəlki II əsrinə aid mənbələrində rast gəlirik. Qadın hüquqlarına aid bir çox hüquqlar, məsələn ailə və nigah hüquqları, kökcə dərin keçmişə – XII əsrə gedib çıxır ki, buna əsasən roma hüququnda romalı qadın həm ərinin nəslinə, həm də atasının nəslinə mənsub ola bilərdi və ona çatan əmlakın idarə olunması üstündə qohumlar arasında münaqişələr yaranırdı, belə ki, nigah kişi qohumlarını (hamiləri) müflis edirdi.

Ata tərəfindən olan qohumları (aqnatlar) müdafiə etmək üçün «Müstəqil nigah» meydana çıxır. Bu aqnasiya sistemi tədricən qadınlara müəyyən hüquqların verilməsinə və onların ailə başçısının himayəsindən çıxma hüququna çevrildi ki, bu da hüquqi proses olan qadın azadlığının başlanğıcını qoydu. Bir tərəfdən ata ailəsinin və ər ailəsinin, digər tərəfdən dövlətin hüquqi maraqlarına əsaslanan bu hüquqi prosesin arxasında iki ailə (ata və ər) və dövlət hakimiyyəti arasındakı münasibətlərin dəyişməsi dururdu. Bu hüquq kişiləri və qadınları hüquqda bərabərləşdirmək məqsədi güdməsinə baxmayaraq, o, qadın hüquqlarının müdafiəsinə zəmin yaratdı.

Qadın hüquqlarının sosial-hüquqi reqlamentasiyası tarixinə baxmalı olsaq, qadının hüquqi statusunun necə formalaşdığını sosial əsasları bizə aydın olar: hər şey elə qanuniləşdirilmişdir ki, qadın varis doğmalı, bunula da qadının hər hansı digər statusu ilə müqayisədə ən yüksəyi olan analıq statusu qazanmalı idi.

Rusiyada mövcud olmuş ər-arvadın əmlaka ayrı-ayrılıqda sahib olma institutu arvad xətti ilə mülkiyyətin toplanmasına səbəb olurdu ki, onu, bir çox məsələlərdə sərbəst edirdi (əmlaka sahib olmaq və ondan sahibkarlıq fəaliyyəti ilə məşğul olmağa qədər istifadə etmək hüququ Qərbdə yox idi və uzun müddət qərb feministləri buna inanmırdılar). Bununla belə məhz həmin hüquqa görə nigah sövdələşmə forması daşıyırdı: ailə və nigah məsələlərində qadın hüquqsuz idi (daha ətraflı – bu işin 5-ci mövzusuna bax).

Fransız inqilabının baş şüarı olan «İnsanın və vətəndaşın hüquq və azadlıqları bəyənnaməsi» təntənə ilə elan edirdi: «Bütün insanlar azad doğulurlar və hüquqlarında bərabərdirlər». Lakin fransızca «kişi» və «insan» eyni cür səslənir odur ki, başa düşülmür, bu qanun qadına aiddir ya yox. Bunun nəticəsi kimi Olimpiya de Quj tərəfindən yazılmış «Qadınların və vətəndaş (qadın)ın hüquqları Bəyannaməsi» meydana gəlir. O, bu Bəyənnamədə elan edir ki, qadın kişidən heç də az olmayaraq özünün azadlıq, şəxsi mülkiyyət və istidada müqavimət hüquqlarından istifadə etmək haqqına malikdir və bu «təbii hüquqların» həyata keçirilməsidə yeganə maneə güclü cinsin tiraniyasıdır. «Əgər qadın eşafota qalxmaq hüququna malikdirsə, deməli, onun tribunaya qalxmaq hüququ da olmalıdır» - elan edən Olimpiya de Quj bu çağırışı ilə aktiv və passiv vətəndaşlar arasında fərq qoyulmasına və bunun 1791-ci ilin Konstitusiyasında təsbit olunmasına əsas verdi. Həmin Konstitusiya ilə qadın ikinci qrupa aid edildi və seçib-seçilmək hüququndan məhrum olundu.

Qadınlara əsas hüquq və azadlıqların verilməsi haqqında məsələ müxtəlif ölkələrdə mərhələlərlə və yalnız il fərqi ilə meydana çıxırdı. Hüquqların qanunvericilikdə təsbit olunması hələ azdır. Daha vacibi odur ki, həyat və əmək şəraiti, ailə ənənələri dəyişməsin, çünki bunsuz heç bir bərabərlikdən, istər bu konstitusiyada üç dəfə yazılmış olsun, söz belə gedə bilməz.

Ərəblərdə belə bir müqayisə var: «cəmiyyət – bir quşdur. Kişi və qadın – quşun iki qanadlarıdır. Quş bir qanadı ilə uça bilmədiyi kimi, cəmiyyət də bu cəmiyyətdəki vəziyyətdən asılıdır».

Lakin qadın hüquqlarının qanunvericilikdə təsbit olunması müxtəlif ölkələrdə müxtəlif cür inkişaf edirdi. Məsələn, qadınlara səsvermə və müvafiq orqanlara seçilmə hüququ ilk dəfə olaraq 1893-cü ildə Yeni Zelandiyada verildi. Bu hüquq Avstraliyada – 1902, ABŞ-da – 1920, Böyük Britaniyada – 1928, Rusiyada – 1919, İspaniyada – 1977, Fransada – 1944, Misirdə –1956-cı ildə təsbit edilib. Ümumilikdə dünyada qadınlar 10% parlamentdə, 6% hökumətdə təmsil olunublar (Məlumat E.Abdullayevvanın «Müasir cəmiyyətdə qadının rolu, qender tədqiqatları və qanun» məqaləsindən götürülmüşdür. Məqalə Qərb Universitetinin Qender Araşdırmaları Mərkəzinin 2002-ci ildə təşkil etdiyi «Ali təhsil sistemində qender probleminin nəzəri-metodoloji aspektləri» adlı elmit praktiki konfransın materiallarında dərc olunmuşdur).

1919-cu ildə Azərbaycanda qadınlara ADR Parlamentinə seçmək və seçilmək hüququ verilmişdi.

1985-ci ildə Azərbaycan SSR Ali Sovetində qadınlar 39% təşkil edirdilər (450 deputatdan 179-u qadın idi); 1995-ci ildə Azərbaycan Respublikasının Milli Məclisində qadınlar 12% (125 deputatdan 12-si), 2000-ci ildə isə 10% (125-dən 13 deputat) idilər. Faiz hesabı ilə bu bir çox MDB ölkələrində olduğundan çoxdur.

Qanunuvericilikdə qadınların təkcə seçki hüquqları təsbit olunmayıb. Azərbaycan Respublikası Konstitusiyasının 24-cü Maddəsi cinsi bərabərliyi təsbit edir, 25-ci Maddə isə hər cür ayrı-seçkiliyi qadağan edir. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi bu hüquqların pozulmasına görə məsuliyyət müəyyən edir.

Ailə qanunvericiliyinin normaları ilə ailə və nigah məsələlərində kişilərin və qadınların bərabərliyi nəzərdə tutulur. Nigahı kişi və qadın arasında könüllü ittifaq kimi müəyyən edərək, qanunverici tərəflərə özlərinə könüllü olaraq soyad (özü də qadın kişinin soyadını götürə bildiyi kimi, kişi də qadının soyadını götürə bilər, yaxud da hər ikisi əvvəlki familiyalarını daşıya bilərlər), yaşayış yeri, əmlaka birgə sahiblik rejimi seçmək hüququ verir. Qadın kişi ilə bərabər olaraq nigahın pozulması, nə vaxt və necə uşaq saxlamaq məsələlərinin həllində müstəqildir. Buna qanunsuz süni mayalanmaya və embrion implantasiyasına, tibbi sterilləşdirməyə görə məsuliyyət nəzərdə tutan AR CM 126-cı Maddəsi qarantdır. Konstitusiyada əksini tapmış bərabər əmək hüququ, həm də ailə vəziyyətini nəzərə almaqla qadın əməyinin mühafizəsi müddəaları əmək qanunvericiliyində öz əksini tapmışdır. AR Cinayət Məcəlləsinin 164-cü maddəsi isə hamilə qadınların və 3 yaşına qədər uşağı olan qadınların əmək hüquqlarının pozulmasına görə məsuliyyət nəzərdə tutur.

Qadın zorakılığa daha çox məruz qalır, bu isə nəinki cinayətə görə, eyni zamanda onun ağır nəticələrinə görə cəza tələb edən əməldir və odur ki, cinayət məcəlləsi bu əmələ görə (AR cM 149 m.) məsuliyyət nəzərdə tutur. Məcəllənin 171, 243 və başqa maddələri qadınların şərəf və ləyaqətlərinin qorunmasına yönəlib.

Hazırki işin sonrakı mövzularında qender qanunvericiliyinə hüququn ayrı-ayrı sahələri aspektlərindən baxılacaqdır.

Milli qanunvericiliklə yanaşı, bir sıra beynəlxalq – hüquqi aktlar nəzərdən keçiriləcəkdir. O cümlədən:

1. «Qadınların siyasi hüquqları haqqında» 31 mart 1952-ci il tarixli Konvensiya;
2. «Nigaha razılıq, nigah yaş həddi və nigahın qeydiyyatı haqqında» 7 noyabr 1962-ci il tarixli Konvensiyası;
3. «Ərli qadının vətəndaşlığı haqqında» 20 fevral 1957-ci il tarixli Konvensiyası;
4. «Qadınlar haqqında hər hansı ayrı-seçkiliyin ləğv olunması haqqında» 18 dekabr 1979-cu il tarixli Konvensiya;
5. «Analığın mühafizəsi haqqında» 28 iyun 1952-ci il tarixli Konvensiya;

6. «Yeraltı işlərdə və hər hansı cür şaxtalarda qadın əməyinin tətbiq olunması haqqında» 21 iyun 1935-ci il tarixli Konvensiya;
7. «Qadınların və uşaqların fövqəladə vəziyyətlərdə və silahlı toqquşmalar dövründə mühafizəsi haqqında» 14 dekabr 1974-cü il tarixli Konvensiya və digər aktlar.

**4.** Bu fənnin yeni olduğunu nəzərə alaraq, onun nisbətən spesifik kateqoriyalarını açmağı lazım bilirik.

**Kateqoriyalar** – elmin əsas, onun predmetinin vacib tərəflərini və xassələrini əks etdirən nisbətən ümumi, fundamental anlayışıdır. Kateqoriyaların vasitəsilə obyektin özü, onun digər obyektlərlə əlaqələri tədqiq olunur, ziddiyyətləri və əlaqə formaları açılır. Kateqoriyalar dialektikdirlər, dərketmə prosesi sonsuz olan obyektiv həqiqətin dəyişikliyindən asılı olaraq yeni məzmunla zənginləşə bilərlər.

Qenderologiya kateqoriyaları spesifikdirlər, lakin onlar ümumi dialektik kateqoriyalarla bağlıdırlar. Qenderologiya üçün hakim kateqoriya – cəmiyyətdəki qarşılıqlı əlaqələrin əsas prinsipi sayılan «bərabərlik» kateqoriyasıdır. Bununla belə, kateqoriya cəmiyyətdə qadının sosial statusu haqqındakı mövcud qanunların xüsusiyyətlərinin açılmasına və bu qanunların konkret tarixi şəraitdə hərəkət mexanizminin təhlilində kömək edir. Qenderin «özünün» bir qrup kateqoriyası digər elmlərdə analoqu olmayan tamamilə yeni hadisə və prosesləri əks eitdirir. Onlara aşağıdakıları aid etmək olar:

- **biarxat** – yunancadan tərcüməsi *ikihakimiyyətlilik,* yəni cəmiyyət həyatında kişilərin və qadınların bərabər iştirakı deməkdir;
- **məişət –** insanın həyat funksiyalarının, onun iş bacarığının və maddi, mənəvi və mədəni tələbatları daxil olmaqla yaradıcılıq fəaliyyətinin bərpası ilə bağlı olan *sosial həyat sahəsidir*;
- **qender** – ictimai həyat və fəaliyyətin bütün sahələrində yaranan *cins münasibətlərinin sosial aspektidir*;
- **qadınlar haqqında ikili standart** – qanuna görə, qadın ictimai həyatın bütün sahələrində kişiyə bərabərdir, lakin faktiki olaraq qadın hüquqlarında məhduddur;
- **cinsə görə ayrı-seçkilik** – qadının hüquq və qanuni maraqlarının *bilərəkdən məhdudlaşdırılmasıdır*;
- **ev təsərrüfatı** – insan fəaliyyətinin kustar, fərdi əmək və vaxt məsrəfi əsasında təşkil olunan bütöv istehsal və istehlak (qida, paltar yuma, uşaqlara və mənzilə qulluq və s.) sferasını təmsil edən *məişətin tərkib hissəsidir.* Tarixi, dini, milli və digər sosial-iqtisadi faktorlardan asılı olaraq, o, istənilən ölçü və formalara malik ola bilər;
- **qadın məsələsi** – təyinedici prinsipi cinsdən asılı olmayaraq bərabərlik, qadın statusunun dəqiq ifadəsi, təfəkkür stereotipindən imtina, qadın azadlığının dəqiq proqramı olan *sosial-iqtisadi problemin ümumi hissəsidir*;
- **qadın hərəkatı** – qadının öz hüquqları uğrunda *mübarizənin müxtəlif metodlarıdır.* Qadın hərəkatının mərkəzində tamhüquqlu, azad qadın şəxsiyyəti, özünüreallaşdırma təyinatı ideyası durur;
- **kvota** – hissə, pay, norma yaxud nəyinsə ölçüsüdür, feminologiyada isə – qadının cəmiyyətin bütün sferalarında, xüsusən də siyasi fəaliyyət sahəsində iştirakıdır;
- **bərabər imkanlar konsepsiyası** – baxışlar sistemi, kişilər və qadınlar üçün bərabər həyat planlarının realizə olunması üçün şərait yaradılması üzrə *rəhbər fəaliyyət prinsipidir*;
- **maskulinçuluq** – zorla, təcavüzlə eyniləşdirilir; kişilərə xas olan somatik, psixiki və davranış xüsusiyyətləri haqqında təsəvvürdür;
- **patriarxat** – kişinin hökmünü, cəmiyyətdə, ailədə onun üstünlük təşkil edən rolunu ifadə edir;

- **cins** – bioloji və sosial başlanğıcın vəhdəti olub, insan nəslinin bir varlıq kimi mahiyyətinin dərk olunmasının əsasıdır. Bioloji cins bir növə mənsub olan fərdlərin genitar əlamətlərinin təzadlı məcmusu, individə şəxsi, hüquqi və sosial cəhətdən kişi və qadın statusu təmin edən somatik, reproduktiv, sosial-mədəni və davranış xarakteristilarının sosial kompleksidir;
- **seksizm** – YUNESKO-nun 1981-ci ildə dövriyyəyə buraxdığı anlayışdır, mənası – cəmiyyətdə qadının rolunu alçaltmaq, qadın potensialını düzgün qiymətləndirməmək, yalnız bioloji xüsusiyyətləri nəzərə almaq, cəmiyyəti cinsi əlamətlərə görə parçalamaq, fərdi keyfiyyət və fərqləri aradan götürmək, kişilərin rolunu şişirtməkdir. Özünün irqlər və etnoslar arasındakı münasibətlərdə ideoloji funksiyalarına görə «seksizm» - kişi «şövinizminin» ən yayılmış formasıdır;
- **sosium** – özündə adamların birləşmə və əlaqəli fəaliyyətinin forma və üsullarını əxz etdirən iri və sabit sosial birlik, bütöv sosial sistem, cəmiyyətdir;
- **feminologiya** – qadınların cəmiyyətdə rolunun tam konsepsiyasını verməyi özünə məqsəd bilən ümumi həyat və fəaliyyət qanunauyğunluqları barədə elmdir;
- **feminlilik** – qadınlara xas olan itaətkarlıq, yumşaqlıq, zorakılığın inkarı ilə eyniləşdirilən somatik, psixiki, davranış kimi xüsusiyyətlər haqqında təsəvvür;
- **yoxsulluğun feminizasiyası** – işsizliyin artması nəticəsində qadınların iqtisadi həyat səviyyəsinin aşağı düşməsi, əsas maraqların, maddi və mənəvi ehtiyacların ödənməsinin qeyri-mümkünlüyü, sağlamlığın, o cümlədən uşaq sağlamlığının pisləşməsidir;
- **feminizm** – kişilərlə hüquq bərabərliyi uğrunda XVIII əsrdə yaranmış qadın hərəkatıdır;
- **eqalitar nəzəriyyə** (fərdi təsərrüfat əsasında hüquq bərabərliyi nəzəriyyəsi) – asılılıqdan və alçaldılmadan xilas olmaq, ictimai, əmək və ailə həyatında müstəqillik qazanmaqdır.

Qenderologiya kateqoriyaları bu elmin özünün inkişafına yardım edirlər. Onlar sosial-siyasi və informasiya – sosioloji məzmuna malikdirlər, özlüyündə idrak prosesinin qovşaq nöqtələrini və mərhələlərini təşkil edirlər. Bu elmin kateqoriyaları dəyişməz qalmırlar: idrak və təcrübə inkişaf etdikcə yeni kateqoriyalar əmələ gəlir, bununla cisim və hadisələrin daxili mahiyyətinə dərindən bələd olmağa imkan verir.

Qadın və kişi bərabərliyi haqqında elmin obyektiv məzmunu bu elmin kateqoriyalarının yalnız digər elmlərin kateqoriyaları ilə əlaqədə kifayət qədər dolğun açıla bilər.

## Ədəbiyyat:


1. Azərbaycan Respublikasının qanunlar külliyyati. – B., 2001
2. Bəxtiyar Əkbərov «Azərbaycan Respublikasının yeni Konstitusiyası və insan hüquqları», Гender: Qadın və hüquq. - B., 1998
3. Гегель Г.В.Ф. «Энциклопедия философских наук». - М., 1975
4. Гендерные проблемы и развитие, Изд. «Весь мир», 2002
5. Права человека: Сборник международных документов. - М.,1998
6. Фараджева Ф. «Методологические аспекты генезиса феминистических и гендерных исследований», Теоретико-методологические аспекты проблем гендерного обучения в системе высшего образования. - Б., 2002